Azərbaycan Xalq Parlamentində
Qurban Məmmədlinin
"İşgəncə, növləri və cəmiyyətdə törətdiyi: ictimai, siyasi, iqtisadi, hüquqi, tibbi, psixoloji fəsadları və sosioloji nəticələri" mövzusunda çıxışı

Hörmətli sədr, hörmətli millət vəkilləri.
Bizi ekranlar qarşısında dinləyən əziz soydaşlar.

"1761-ci ilin 13 oktyabrında Tuluzadakı bir evin birinci mərtəbəsində özünü asmış cavan oğlan tapılır. Xalq ayağa qalxır, ruhanilərin ağzından od tökülür, məhkəmə istintaqa başlayır. Bu – intihar idi, amma onu qətl kimi qələmə verdilər. Bu – kimin maraqlarına xidmət edirdi? Dinin maraqlarına. Və kimi ittiham elədilər? Oğlanın atasını.

O quqenot idi, özü də oğlunun katolik olmasına mane olmaq istəyirdi. Bu ittiham – mənəvi baxımdan iyrənc, fiziki nöqteyi-nəzərdən isə mümkünsüz idi – axı onların aralarında nə qədər yaş fərqi vardı?! Bu atamı oğlunu öldürmüşdü, bu qocamı cavan oğlanı asmışdı? Ədalət məhkəməsi işləyir, bu da onun işinin nəticəsi. 1762-ci ilin mart ayının 9-da çalsaçlı Jan Kalası meydana gətirib, çılpaq soyunduraraq, təkərə bağlayırlar. Onun qollarını sarıyıblar, başı sinəsinə əyilib. Eşafotda üç adam var: edama nəzarət edəcək bələdiyyə məsləhətçisi David, əlində xaç tutmuş rahib və əlində dəmir parçası tutmuş cəllad.

Sarsılmış və dəhşətə gəlmiş qoca rahibə baxa bilmir, onun gözü cəlladdadı. Cəllad dəmir parçasını qaldırıb, onun əlini əzir. Müttəhim bağırıb, huşunu itirir. Məsləşətçi vurnuxur, müttəhimə duz iylədib, onu özünə gətirirlər: sonra yenə dəmirlə onun əlini əzirlər, o yenə bağırır. Kalas huşunu itirir, onu özünə gətirirlər və cəllad bir də, bir də ona zərbələr endirir. Hər əl və hər ayaq iki dəfə qırılmalı olduğundan – bu zərbələr səkkiz dəfə təkrar olunmalıdır. Səkkizinci ürəkgetmədən sonra rahib xaçı onun dodaqlarına yaxınlaşdırır amma müttəhim üzünü çevirir. Bu vaxt cəllad sonuncu zərbəni endirir – dəmir paraçası ilə onun sinəsin yarır. Jan Kalas belə öldü. Onun edamı iki saat çəkdi. Onun ölümündən sonra qocanın oğlunun intihar etməsi subut olundu. Amma qətl artıq gerçəkləşdirilmişdi! Bu qətli kim törətmişdi? Hakimlər!

İkinci fakt. Bu dəfə bir gəncin hekayəti. Həmin qocanın edamından üç il sonra, 1765-ci ildə, Abvildə, körpünün üstündə möhkəm küləkli və ildırımlı bir gecəyarısı üç yüz ildir ki, körpünün sürahısını bəzəyən, yarıütülmüş ağacdan olan köhnə xaç tapılır. Bu xaçı sürahıdan kim qoparıb atmışdı? Bu kafirliyi kim eləmişdi? Məlum deyildi. Bəlkə də hansısa yodan ötənin işi idi. Bəlkə də xaçı külək yerindən qoparmışdı. Günahkar kim idi? Amyen yepiskopu bildiriş məktubu yazır. Bildiriş məktubunda yazılanlar bunlardır: bu, əbədi əzablardan çəkinən bütün iman əhlinə verilmiş əmrdir: onlar bu hadisənin səbəbkarını ya tanıdıqlarını ya da ehtimal elədiklərini deməlidirlər. Fanatizmin cəhalətə öldürücü əmri idi bu. Amyen yepiskopunun bildiriş məktubu öz işini görür: baş alıb gedən qeybətlər, çuğulluq həddinə çatır.

Ədalət məhkəməsinə məlum olur ki, - bəlkə də o yanılır – xaçın yerə atıldığı gecə, Abvil körpüsündən Labarr və d'Gtalond adlı iki zabit keçib, onlar həmin gecə sərxoş halda qvardiya mahnısı oxuyurmuşlar. Məhkəməni Abvil seneşallığı aparır. Abvil seneşalları da elə Tuluza məsləhətçilərinin taylarıdır – birisinin ədalət hissi heç də digərindən az deyil. İki həbs qərarı çıxır: D'Gtalond qaçıb gizlənir, Labarrı tuturlar. Məhkəmə istintaqı başlayır. Oğlan mahnı oxuduğunu boynuna alır, amma körpüdən keçdiyini inkar edir. Abvil seneşallığı hökm çıxarır: Labarr Paris parlamentinə apellyasiya verir. Onu Parisə aparırlar, burada hökmü düzgün hesab edərək, təsdiqləyirlər. Zəncirə vurulmuş Labarrı təzədən Abvilə gətirirlər.

Hadisəni qısaca danışacağam. Dəhşətli an gəlib çatır. Şevalye de Labarrı ilk növbədə sorğu-sual eləyir, sonra dəhşətli işkəncələrə məruz qoyurlar ki, o əlbir olduğu adamların adını desin. Onlar nədə əlbir ola bilərdilər? Körpüdən keçməkdə və mahnı oxumaqdamı? İşkəncə verəndə onun dizin qırırlar, sümüklərin şaqqıltısını eşidən etiraf rahibinin ürəyi gedir.

Səhəri gün, 1766-cı ilin iyun ayının 5-də Labarrı dartıb, şəhər meydanına gətirirlər – orada artıq hazır tonqal qalanmışdı. Müttəhimin üzünə hökm oxuyur, sonra biləyini kəsir, daha sonra dəmir kəlbətinlə dilini çəkib çıxarırlar. Axırda mərhəmət göstərib, başını kəsərək, oda atırlar. Şevalye Labarr bax, belə öldü. Onun on doqquz yaşı vardı. “

Bunlar Fransanın böyük yazıçısı, ictimai-siyasi xadimi, insanlığın vicdan səsi olan Viktor Hüqonun Volterin ölümünün 100 illiyində etdiyi çıxışındandır.

**O, həmin çıxışında dünyaya belə səslənirdi: “"Dünyada ancaq bir güc var – ədalətin xidmətində dayanan vicdan. Dünyada ancaq bir şərəf var – həqiqətin xidmətində dayanan düha!".**

Həmin nitqində Hüqo cəmiyyətin quruluşunu belə təsvir edirdi:
“Aşağıda xalq var.
Xalqdan üstün olan – mənəviyyatı təmsil edən din.
Dinin yanında – ədaləti təmsil edən məhkəmə.
Insan cəmiyyətinin həmin yaşam dövründə xalqın sifəti nə idi?- Cəhalət.
Dinin mahiyyəti nə idi?- Dözümsüzlük.
Ədalət məhkəməsinin mahiyyəti nədən ibarət idi? -Ədalətsizlikdən.”

Hörmətli millət vəkilləri, ekranlar qarşısında bizi izləyən əziz soydaşlar, o dövrdəki, yəni 300-500 il bundan öncəki Avropada mövcud olan bu cəhalət, bu dözümsüzlük və bu ədalətsizlik məhz işgəncə vasitəsilə bərqərar edilmişdi.

Əsas mövzumuza keçməzdən öncə, hörmətli millət vəkilləri, əziz soydaşlar, sizə bəzi suallar ünvanlamaq istərdim?

1. Sizcə, işgəncə yalnız orta əsrlərdə olub və tarixin o qaranlıq dönəmində qalıb, yoxsa, bu gün də var?

2. Sizcə:
- insanın uzun müddət normal qidalanmaması,
- onun və ailəsinin dolanışığına yetəcək əmək haqqı ilə təmin edilməməsi,
- uşağını normal böyütmək üçün ona uşaq pulu verilməməsi,
- işsiz qalması,
- daim polis zorakılığına məruz qala biləcək qorxusu altında və məhkəmələrdə hüququnu qoruya bilməyəcək vahiməsi ilə yaşaması,
- özünün, ətrafındakı insanların, xüsusilə də jurnalistlərin və hüquq müdafiəçilərinin şərlənərək həbs edilməsini görməsi,
- yaşadığı cəmiyyətdə özünün və digərlərinin əmlak hüquqlarının sistemli olaraq pozulmasının şahidi olması işgəncə sayıla bilərmi?

3. Sizcə, işgəncə kimə daha çox zərər vurur: işgəncə görən fərdə, yoxsa cəmiyyətə?

Hörmətli millət vəkilləri, əziz soydaşlar, sizləri bu suallar ətrafında düşünməyə dəvət edirəm.

Mövzu o qədər çoxtərəfli, faktlarla zəngin və günümüz baxımından o qədər aktual və vacibdir ki, bu mövzuda saatlarla, günlərlə danışsaq, bitməz. Mən vaxtı və şəraiti nəzərə alaraq, mövzunu siz dəyərli millət vəkilərinə və xalqımıza tezislər şəklində çatdırmağa çalışacağam.

Məndən əvvəl çıxış edən hörmətli millət vəkilimiz Ataxan Əbilov işgəncənin hüquqi aspektlərinə ətraflı toxundu və mən onun bu çox əhəmiyyətli, dərin məzmunlu məruzəsinə görə ona təşəkkür edirəm.
Ona görə də, mən çalışacağam ki, hüquqi terminlər və hüquqi problemlərlə bağlı sizləri məşğul etməyim.

İşgəncə — insana: davam edən, sistemli, ardıcıl fiziki və ya psixoloji əzab verməkdir.
İşgəncə - insanı cəzalandırmaq, qorxutmaq və ya nəyisə etməyə məcbur etmək məqsədilə həyata keçirilən hərəkətlərdir.

Heyvanlara da verilən fiziki və mənəvi (psixoloji), bəli, bəli, heyvanlara da verən fiziki və mənəvi ağrı işgəncə hesab edilir. Bir toyuğun balasını altından almaq, bir heyvanın balasını ondan ayırmaq da insana verilən işgəncənin eynidir.

Meşələrin qəsdlə yandırılması, flora və faunanın məhv edilməsi də təbiətə və heyvanlara verilən işgəncə hesab edilməlidir və bu mövzularda saatlarla danışmaq olar.

Ancaq, bizim bu günkü mövzumuzun əsas predmeti insanlara verilən işgəncədir.

İşgəncə insan övladının etdiyi kəşflərdən ən təhlükəlisi, ən ziyanlısı və qınanılasıdır. Ona görə "kəşf" deyirəm ki, Allah insanı yaradanda ona bir-birinə işgəncə verə biləcəyini, hansı üsullarla işgəncə verəcəyini öyrətmədi. İnsan övladı bunu sonradan özü kəşf etdi. Sizcə, insan psixologiyasını hərtərəfli öyrəndikdən sonra, onun məhz hansı psixoloji təsirlərə məruz qoyula biləcəyini öyrənmək kəşf deyilmi?
Faşist düşərgələrində əsirlər üzərində aparılan təcrübələr, İsrail həbsxanalaında fələstinli dustaqlar üzərində edilən testlər, yaxud da "Tərtər qətliamı"nda Azərbaycan Ordusunun şərəfli əsgər və zabitlərinə qarşı törədilən vəhşi hərəkətlər insan psixologiyasının sərhədlərini müəyyən etmək üçün tətbiq edilən testlər deyilmi?

İşgəncə keçmişdə də olub, indi də var, gələcəkdə də ola biləcəyi istisna deyil.

Qədim dövrlərdə işgəncə həm cəza, həm də məhkəmə prosesi zamanı "etiraf alma" vasitəsi kimi istifadə olunurdu.

XX əsrdə faşist Almaniyası, Stalinizm dövrü SSRİ, həmçinin bir çox diktatura rejimləri işgəncəni sistemli idarəetmə vasitəsinə çevirdi.

Orta əsrlərdə, xüsusilə də Avropa inkvizisiyası dövründə, bu məqsədlə istehsal olunan işgəncə alətləri belə var idi.

Onlardan üçü ilə sizi tanış etməyi vacib hesab edirəm:

1. "işgəncə təkəri" - Bu alət vasitəsilə verilən işgəncəyə hüquqda "təkərləmə" deyilir. Qədim dövrlərdə Roma və Yunanıstanda, Orta əsrlərdə, xüsusilə Almaniya, Fransa, Polşa və Skandinaviya ölkələrində (bu ölkələrin indiki vəziyyətini Azərbaycanla müqayisə etməyə

çalışın, əziz soydaşlar) geniş istifadə olunurdu. İşgəncə veriləni yerdə olan və ya hündür bir dirəyə bərkidilmiş təkərə əl-ayaqlarından bağlayırdılar. Sonra cəllad əlini, qolunu, ayağını küt alətlə sındırırdı. Sınıqlar təkərin deşiklərinə girməklə onu hərəkət etməyə qoymurdu. Şəxs günlərlə bu vəziyyətdə ac-susuz saxlanılırdı. Sonda aclıqdan və qanaxmadan ölürdü.

2. "dəmir qız"- qapılarında uzun mismarlar bərkidilmiş dar, dəmir qutu. Adamı onun içinə yerləşdirdikdən sonra qapılar zorla örtülür, mismarlar insanın bədəninin müxtəlif yerlərinə batmaqla ona ağrı verir, qanaxmaya səbəb olurdu. Mismarlar elə düzülürdü ki, həyati əhəmiyyətli orqanları zədələyib tez ölümə səbəb olmasın.

3. "uzatma masa" - Uzun taxta çarpayıya bənzəyirdi. İki başında fırlanan **silindr formalı mexanizm** vardı. Məhkum (çox vaxt da günahsız insan) **əl-ayaqlarından bu silindrlərə bağlanırdı**. Cəllad mexanizmi fırlatdıqca, insanın bədəni yavaş-yavaş gərilirdi. Əvvəlcə sadəcə ağrı hiss olunurdu, amma mexanizm döndükcə, **oynaqlar çıxır, sümüklər qırılır, əzələlər və vətərlər cırılırdı**. Zorla uzadılan bədən nəticədə iflic olur, çox vaxt da qan dövranının pozulması və daxili orqanların zədələnməsi ilə ölüm baş verirdi. Bəzən işgəncə "etiraf almaq üçün" yarımçıq dayandırılır, qurban sağ qalırdı – amma bədəni ömürlük şikəst olurdu. "Uzatma masası" xüsusilə **orta əsr Avropasında** məşhur idi. İngiltərədə XVI əsrdə "Tower of London"da bu alət xüsusi məşhur idi. Əsas məqsəd **etiraf almaq** və ya insanı digərlərinin gözü qarşısında "caydırıcı" şəkildə cəzalandırmaq idi.

Hörmətli millət vəkilləri. Əziz soydaşlar.
Bilirəm ki, bu sətirləri dinlədikcə dəhşətə gəlirsiz, özünüzü narahat hiss edirsiz, bu, sizin hisslərinizə, duyğularınıza mənfi təsir göstərir. Bu məqamda bir sualı verməkdən özümü saxlaya bilmirəm.
Siz necə düşünürsüz: sizcə, orta əsrlərdə, həmin işgəncə alətlərinin tətbiq edildiyi dövrdə yaşayan insanlar XXI əsrdə, Azərbaycan adlanan dövlətdə, "Tərtər qətliamı"nda tətbiq edilən işgəncə üsullarını eşitsəydilər, onlar hansı hissləri keçirərdilər?
"Tərtər qətliamı"nda verilən işgəncə növlərindən bəziləri:

- Əl-ayaq dırnaqlarının çəkilməsi,
- Maqqaşla bədən ətlərini qopartma,
- 1,5-2.0 metr hündürlüyə qaldırılıb oradan döşəməyə çırpılma,
- Yaxın qohumları bir-birinə təhqir etdirmə (oğulu atanın, bacıoğlunu dayısının başına, ananı oğlunun ağzına sidiyə getməyə məcbur etmə, bir-birilərinin əleyhinə ifadə verməyə məcbur etmə).
- əsgər və zabitləri zorla bir-birinə kamera qarşısında zorlatma,
- Ucu biz alətlərlə (avtomatın süngüsü, sim –"katenka" və s.) bədənin müxtəlif nahiyyələri deşmə,
- Drellə ayaq-bud sümüyündə deşik açma,
- Plasmas materialı əridib bədəninin müxtəlif yerlərinə tökmək (əlin üstü, sinə, kürək və s.), kürəkdəki qabarmış yaraların qabarını qopardıb yerinə duz-istiot töküb çəkmələrlə tapdalamaq,
- Dırnaq altına ucu biz alətlərin (iynə, mıxça, taxta parçası və s.) yeridilməsi yoluyla ağrı vermə.
- Çəkilmiş dırnaq yerlərindən elektrik cərəyanı vermə.
- Ayaqlarından asılmaqla başını su dolu qablara salıb boğma,
- Su əvəzinə sidik içirtmə,
- Təbii ehtiyaclarını ödəməyə günlərlə imkan verməməklə insanların nəcis və üfunət içində saxlanması.
- Laxtalanmış insan qanı və insanın daxili orqanları ilə dolu olan, divarları, döşəməsi və tavanı insan qanına bulaşmış otaqlarda saxlama,

- Bir çox əsgər və zabitlərin arxa dəliyinə (anus) lom (dəmir alətlər), taxta reykaları və ayaq yeritməklə daxili orqanlarının sıradan çıxarılması ilə ölümünə səbəb olma.
  - 5 litrlik su qablarından ağzına su tökməklə qarnından təpiklə basıb insanlara boğulma hissi yaşatmaq.
  - Ağız və burnunu nəm əski parçası ilə örtərək, üstündən su tökməklə nəfəs almasını çətinləşdirib, boğulma hissi yaratmaq.
  - Insanların dişlərinin dəmir əşyalarla sındırlması və çəkilib atılması (bir xadimənin verdiyi məlumata görə, işgəncə yerindən bir 10 litrlik vedrə diş toplanmışdı).
  - Bəzi əsgər və zabitləri başqalarının gözü qarşısında, bəzən də Azərbaycan Respublikasının yerə sərilmiş bayrağı üzərində zorlanması.
  - Bütün əsgər və zabitlərin bədənlərinin müxtəlif nahiyyələrindən (ağız boşluğundan, çıxardılmış diş yerlərindən, dırnaqları çıxarılmış barmaq uclarından, cinsiyyət orqanlarından, arxa dəliyindən və. s) elektrik ötürmə.
  - Əsgər və zabitləri lüt söyundurub bir-birindən yapışmağa məcbur etməklə ( qatar formasında) birinci və sonuncu əsgərə elektrik cərəyanı qoşmaq,
  - Insanların komaya düşənədək döyülməsi, elektrikə verilməsi (bəzi zərərçəkənlər 3 ayadək komada olduqlarını deyirlər),
  - Müalicə adı ilə aparıldıqları hospitallarda günlərlə əlləri və ayaqları çarpayıya bağlı vəziyyətdə saxlama.
  - Hospitallarda müalicə adı altında döyülmə, təhqir edilmə,
  - İşgəncə məkanlarının birindən digərinə aparılması zamanı insanların lüt, yarımçılmaq vəziyyətdə yük maşınlarına üst-üstə yığılması.
  - Beton, daş və asfalt səthlərdə sürümə.
  - Əlləri arxada bağlı olmaqla günlərlə başı divara tərəf diz üstə oturtma.
  - İşgəncə məkanlarının ikinci, üçüncü mərtəbələrindən asfalt və ya daş döşənmiş yerlərə atılma (bu metodla iki yüksək rütbəli zabitin, bir MAXE-nin öldürülməsi barədə şahid ifadələri var).
  - Zərərçəkmişlərə məlum olmayan iynələrin vurulması ilə sağlıq problemlərinin, xüsusilə də yaddaşsızlığın yaradılması və zəhərli iynələrlə öldürmə.
  - Saxlanılan əsgər və zabitlərin bir çoxunun həyat yoldaşına, eləcə də azyaşlı uşaqlarına fiziki, psixoloji təzyiqlərin göstərilməsi.
  - Arxa dəliyindən və ağzından elektrikə qoşmaqla ağız boşluğunda lapma yandırmaq və lampa partlatmaq.
  - Kamera qarşısında cinsiyyət orqanlarını zərərçəkmişlərin ağzına soxmaq, onları zorlamaq, müxtəlif alçaldıcı hərəkətlər etmək.
  - Yemək otağına gedərkən, bir nəfəri giriş qapısında üzü üstə yerə uzadaraq yüzlərlə başqalarını onun üstündən keçməyə məcbur etmək.
  - Lüt vəziyyətdə ilanlı və tikanlı sahəyə atmaqla ilana çaldırmaq.

- Bacı və qardaşı lüt vəziyyətdə, üz-üzə bir-biri ilə bağlayıb saatlarca saxlamaq,
- "erməniyə casusluq etmək"də ittiham olunan bəzi əsgər və zabitlərin xanımlarını, ana və bacılarını onların gözləri önündə döymək, alçaltmaq və təhqir etmək.
- Xayalarından asmaq və sürümək.

Bu işgəncə növlərini sadalamaqla Orta əsrlərdə yaşayan insanların ruhuna və sizlərə verdiyim mənəvi narahatlığa görə üzr istəyirəm. Ancaq bu, günümüzün Azərbaycan reallıqlarıdır.

BMT-nin "İşgəncəyə qarşı Konvensiyası"na qoşulmalarına baxmayaraq, Azərbaycanda və bir sıra başqa ölkələrdə bu gün də işgəncələr davam edir. İsrail həbsxanalarında fələstinli əsirlərin zorlanması, işgəncəyə məruz qalması, müxtəlif üsullarla alçaldılması dünən baş verən hadisələrdir.

Respublikamızın bütün polis şöbələrində və cəzaçəkmə müəssisələrində saxlanılanlara, şübhəli şəxslərə, təqsirləndirilən şəxslərə və məhbuslara dəhşətli işgəncələr verilir.

Siyasi fəallara, jurnalistlərə və müxalifət nümayəndələrinə qarşı, əsas etibarı ilə, psixoloji işgəncə metodları tətbiq edilir. İnformasiya almaq hüququndan məhrum etmək, qanuni fərdi və ailəvi görüşlərinə imkan verməmək, ailələri ilə telefon əlaqəsi saxlanmasına mane olmaq, vaxtında tibbi yardım göstərməmək və s.

Dinc, günahı olmayan, azadlıqda olan insanlara qarşı törədilən vəhşiləikləri nəzərə alanda, müxtəlif ölkələrdə gedən müharibələr nəticəsində əsir düşənlərə qarşı tətbiq edilən işgəncələrdən danışmağa dəyməz.

Hörmətli millət vəkilləri! Mövzu çox genişdir. Bilirəm ki, vaxtınızı alır, əsəbləriniz pozuram.
Ona görə də, mövzunun "FƏSADLAR" hissəsini tezislər şəklində diqqətinizə çatdırıram:

1. İşgəncənin ictimai fəsadları:

- İşgəncə təkcə qurbanı deyil, bütün cəmiyyəti yaralayır.
- İnsanlar dövlət orqanlarına etimadını itirir.
- Cəmiyyət qorxu mühitində yaşayır.
- Demokratiya və azadlıq prinsipləri zədələnir.

2. İşgəncənin siyasi fəsadları:

- İşgəncə siyasi hakimiyyətin öz mövqeyini qorumaq üçün istifadə etdiyi ən təhlükəli vasitələrdən biridir.
- Müxalifətin səsi boğulur.
- Cəmiyyətin azad söz demək imkanları məhdudlaşdırılır.
- Siyasi məhbus problemi yaranır ki, bu da ölkənin beynəlxalq imicinə ciddi zərbə vurur.

3. İşgəncənin hüquqi fəsadları:

- İstintaq və məhkəmə orqanlarının qanunsuz fəaliyyəti,
- İşgəncənin istintaq orqanlarında sübutetmə vasitəsi kimi normallaşması,
- Məhkəmə sisteminin məhv edilməsi,
- total hüquqsuzluq,
- insanlarda hüquqi baxımdan müdafiəsizlik duyğusunun yaranması.

4. İşgəncənin tibbi və psixoloji fəsadlar:

- İşgəncə insanın bədənində və psixikasında dərin izlər buraxır.
- Fiziki nəticələr: sınıqlar, daxili orqan zədələnmələri, xroniki ağrılar.
- Psixoloji nəticələr:
  - post-travmatik stress pozuntusu (PTSP),
  - depressiya,
  - yuxu problemləri,
  - intihar meyilləri.
- İşgəncə qurbanlarının ailə üzvləri də dolayısı ilə bu travmanı yaşayır.

- Bütün bu simptomlar “Tərtər qətliamı”nın qurbanlarında bu gün də özünü göstərir.

5. İşgəncənin iqtisadi fəsadları:

- işgəncənin olduğu ölkəyə investisiya qoyulmaz,
- qoyulan investisiyalar qaçar,
- iş adamları daim qorxu altında yaşar və bu da onların fəaliyyətinə mənfi təsir göstərər,
- əmək məhsuldarlığı aşağı düşər,
- işgəncə nəticəsində əmələ gələn şikəstliklər iqtisadi sahədə əmək resurslarının azalmasına və çatışmamazlığına səbəb olar,
- işgəncə qurbanlarının müalicəsinə əlavə xərclərin çəkilməsi həmin ailələri ağır iqtisadi duruma salar və s.

6. İşgəncənin sosioloji nəticələri:

- İnsanlar qorxu içində yaşar,
- Sosial aktivlik zəifləyər,
- Emigrasiya və beyin axını artar,
- İnsanlar arasında güvən mühiti dağılar.
- Dövlət idarəçiliyində mütəxəssis-kadr qıtlığı yaranar,
- Dövlət idarəçiliyi dələduz və əxlaqsız şəxslərin əlinə keçər,
- Dövlət çökər, xalqın gələcəyi təhlükəyə düşər.
- **İşgəncə olan ölkələrdə ƏDALƏT OLMAZ!**

İşgəncə insan ləyaqətinə yönəlmiş ən qəddar cinayətdir. O, nəinki fərdi, həm də bütün cəmiyyəti məhv edir. Ona görə də beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti və hər bir vicdanlı insan işgəncəyə qarşı birgə mübarizə aparmalıdır.

Hörmətli millət vəkilləri.
Bilirəm ki, vaxtınızı çox alıram. Bəlkə də, bezdirdim sizi. Ancaq işgəncə ilə bağlı danışanda dinlərin bu məsələyə münasibətinə toxunmadan keçmək olmaz. Bir az da səbr etmənizi rica edirəm.

**İslamda İşgəncəyə Münasibət.**

Dini kitabımız müqəddəs Qurani Kərimdə “işgəncə” sözü birbaşa bu gün istifadə etdiyimiz mənada işlədilmir, amma bir çox ayələrdə tez-tez təkrarlanan “**ədalət, mərhəmət, insan ləyaqəti”** prinsipləri işgəncəni qətiyyətlə rədd edir.

Məsələn,

- **Ədalət prinsipi ilə bağlı Quranda deyilir:**

  “Ey iman gətirənlər! Allah üçün haqqı dəstəkləyən, ədalətlə şahidlik edənlər olun. Hər hansı bir camaata olan nifrətiniz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun, bu, təqvaya daha yaxındır.”
  *(Maidə, 5:8)*

– Bu ayə göstərir ki, hətta düşmənə qarşı da ədalətsizlik, zülm və zor tətbiq etmək olmaz.

- **İnsanın ləyaqəti haqqında Quran belə buyurur:**

“Biz Adəm oğullarını şərəfli etdik...”
*(İsra, 17:70)*

– Qurana görə insan Allah tərəfindən şərəfli yaradılıb. İşgəncə isə bu şərəfi tapdalamaqdır.

- **Zülmün qadağan olunması barədə:**
  Quranda zülm ən böyük günahlardan sayılır. İşgəncə isə açıq-aşkar zülm formasıdır.

“Allah insanlara zülm etməz, lakin insanlar özlərinə zülm edirlər.”
*(Yunus, 10:44)*

- **Məcbur etməyin yasaqlanması:**

“Dində məcburiyyət yoxdur...”
*(Bəqərə, 2:256)*

– İmanın əsası könüllü qəbuldur. İşgəncə ilə etiraf almaq, kimisə məcbur etmək Qurana ziddir.

**Hədislərdə işgəncəyə münasibət.**

Peyğəmbər Məhəmməd (s.ə.s.) öz hədislərində və davranışlarında işgəncəni açıq şəkildə pisləyib:

- **Mərhəmət və insanpərvərlik:**
  “Yer üzündə olanlara mərhəmət edin ki, göydə olan da sizə mərhəmət etsin.”
  *(Tirmizi, Birr, 16)*
- **Zülm qadağan edilib:**
  “Zülmdən çəkinin! Çünki zülm Qiyamət günü zülmət olacaq.”
  *(Müslim, Birr, 56)*
- **İşgəncənin yasaq edilməsi:**
  Hədislərdə açıq şəkildə göstərilir ki, günahkar da olsa, insanlara işgəncə etmək haramdır. Məsələn:
  “Kim dünyada başqasına əziyyət verərsə, Allah Qiyamət günü ona əziyyət verəcək.”
  *(Əhməd ibn Hənbəl, Müsnəd, c. 2, s. 160)*
- **Məhbuslara münasibət:**
  Peyğəmbər (s.ə.s.) əsirlərə işgəncə etməyi, aclıq və susuzluqla cəzalandırmağı qadağan etmiş, onları yemək və geyimdə müsəlmanlarla bərabər tutmağı əmr etmişdir.
- Həzrət Məhəmməd (s) buyurub:
- “Allah Rəhmandır, rəhmi sevir. Kimdə rəhmdən bir pay olsa, Allah ona xeyir verər. Kimdə rəhmdən bir şey olmasa, Allahın xeyrindən məhrum qalar.”
- “Heç kəsə işgəncə etməyin, hətta heyvanlara belə.”

Bu, göstərir ki, İslam təkcə insanlara yox, hətta heyvanlara belə əzab verməyi qadağan edir.

- **Zülm və işgəncəyə qarşı qadağa**
- “Zülmdən çəkinin! Çünki zülm qiyamət günü qaranlıqlar olacaq.”
  *(Səhih Muslim, 2578)*

- **Heyvanlara belə işgəncənin qadağan olunması**
- "Bir qadın bir pişiyi acından öldürdüyünə görə Cəhənnəmə düşdü..."
  *(Səhih Buxari, 3318)*
- **Mərhəmətin əsas prinsipi**
- "Mərhəmət etməyənə (başqalarına), Allah da mərhəmət etməz."
  *(Səhih Buxari, 5997)*
- **İşgəncəyə dair açıq qadağa**
- "Allah işgəncə verənlərə əzab verəcək."
  *(Müsnəd Əhməd, 23408)*
- **Ədalətli rəhbərlik haqqında**
- "Ədalətli rəhbər Allahın ən sevimli bəndəsidir. Zülm edən rəhbər isə Allahın ən qəzəbli bəndəsidir."
  *(Tirmizi, Əhkam, 1329)*

**Islam dinində qisas və cəza prinsiplərində işgəncə yoxdur**

- İslam hüququnda cəza tədbirləri var, lakin **işgəncə və əzabvermə qətiyyən qəbul olunmur**. Məsələn, günahkarın cəzalandırılması yalnız şəriət çərçivəsində, məhkəmə qərarı ilə mümkündür və heç bir halda əzab və təhqirlə müşayiət oluna bilməz.
- İslam dinində işgəncə tamamilə qadağandır. Qurani-Kərim insan ləyaqətini uca tutur, ədaləti önə çəkir və zülmü, əzabverməni ən böyük günahlardan hesab edir. Peyğəmbərin (s) sünnəsində də işgəncəyə, zorakılığa, hətta ən kiçik mərhəmətsizliyə yer yoxdur.

Beləliklə də, gördüyünüz kimi, Qurani-Kərim və hədislərdə işgəncə - zülm kimi dəyərləndirilir və tamamilə qadağan olunur.

- İslam hüququnda işgəncə ilə etiraf almaq, kimisə məcbur etmək **etibarsız** və **haram** sayılıb.
- ***İslamda ədalət, mərhəmət və insan ləyaqəti işgəncənin tam əleyhinədir.***

---

**Xristinlıqda işgəncəyə münasibət. Xristian aləmində işgəncəyə müxtəlif dövrlərdə fərqli münasibətlər olub.**

1. İncildə, Qurani Kərimdə olduğu kimi, işgəncə açıq şəkildə qadağan edilməsə də, sevgi, mərhəmət və insan ləyaqətinə hörmət əsas mesajdır ("Qonşunu özün kimi sev", "Rəhm etmək qurban gətirməkdən üstündür").

- İsa Məsih özü də Roma işgəncələrinə məruz qalıb və yəhudilərin dini rəhbərləri tərəfindən çarmıxa çəkilib, amma ardıcıllarına zorakılıqdan uzaq durmağı öyrədib.
- İlk xristian icmaları işgəncəyə məruz qalsalar da, onu tətbiq etmirdilər.

2. Orta əsrlər – kilsənin və dövlətin münasibəti

- **IV əsrdən** (xristianlığın rəsmi dövlət dini olması ilə) kilsə dövlət mexanizmlərinə təsir göstərməyə başlayır.
- **XI–XIV əsrlərdə** işgəncə Avropada hüquqi prosedurun qanuni hissəsinə çevrilmişdi.
    - Məruzənin əvvəlində Viktor Hüqodan gətirdiyim sitatdan gördüyünüz kimi, "İnkvizisiya" məhkəmələrində işgəncə etiraf almaq üçün qanuni vasitə kimi istifadə edilirdi.
    - Kilsə "həqiqəti ortaya çıxarmaq" adı ilə bəzi hallarda işgəncəni qanunlaşdırmışdı.

**3. Xristian teoloqlarının mövqeyi**

- **Avqustin (IV–V əsr)** – zorakılığın müəyyən hallarda (savaşda, bidətə qarşı) məqbul ola biləcəyini deyirdi.
- **Tomas Akvinalı (XIII əsr)** – işgəncənin istifadəsini bəzi hallarda zəruri vasitə kimi qəbul edirdi.
- Amma digər xristian mistikləri və rahiblər (məsələn, Fransiskanlar) işgəncəni kəskin rədd edirdilər.

**4. Yeni dövr – humanist yanaşma**

- **XVI–XVII əsrlərdə** Reformasiya və humanist düşüncə Avropada işgəncənin əleyhinə fikirləri gücləndirdi.
- **XVIII əsrdə maarifçilər** (Volter, Bekkarıya) işgəncəni insan ləyaqətini alçaldan, ədalətsiz vasitə adlandırdılar. Viktor Hüqo da məhz Volterin ölümünün yüzilliyində işgəncələrə qarşı üsyan edir, Avropanın vicdanını oyatmağa çalışırdı.
- Yeni dövrdə katolik və protestant teoloqların böyük hissəsi işgəncəni rədd etməyə başladı.

**5. Qadağalar və müasir dövr.**

- **XVIII əsrin sonu – XIX əsrin əvvəllərində** Avropa ölkələrinin çoxunda işgəncə qanuni sübutetmə vasitəsi kimi qadağan edildi.
- **1948** – BMT-nin İnsan Hüquqları Bəyannaməsi (xristian dünyasının da dəstəyi ilə) işgəncəni beynəlxalq miqyasda qadağan etdi.
- Müasir xristian kilsələri (Katolik, Pravoslav, Protestant) işgəncəni qətiyyətlə günah və Tanrıya qarşı çıxmaq kimi qiymətləndirirlər.

**Gördüyünüz kimi:**

- ilk xristianlıq dövründə işgəncə rədd edilirdi.
- Orta əsrlərdə isə dövlət və kilsənin maraqları naminə "qanuni prosedur" statusu aldı.
- Yeni dövrdən başlayaraq humanizm və maarifçilik təsiri ilə işgəncəyə münasibət dəyişdi, qadağalar tətbiq olundu.

- *Bu gün isə bütün xristian kilsələri işgəncəni* **insan ləyaqətinə zidd və günah** *hesab edirlər.*

Hörmətli millət vəkilləri, əziz soydaşlar.

Diqqət edin!

500 il bundan qabaq işgəncəni qanunlaşdıran, məhkəmələrində, insanların gözü qarşısında, açıq meydanlarda, heç bir günahı olmayan insanlara vəhşi işgəncələr verən Avropa indi dünyaya rəhm və mərhəmət yayır, humanizmi təbliğ edir, öz cəmiyyətlərində insanın, həqiqətən də, Allah tərəfindən yaradılan ən şərəfli varlıq olduğunu gündəlik əməlləri ilə, qurduqları sosial yardım sistemi ilə sübut edir.

Dini, milli və mənəvi dəyərləri işgəncəni ilk gündən, kökündən rədd edən, haram buyuran islam dininin daşıyıcıları olan bilzərin vətənində isə, XXI əsr Azərbaycanında insanlara zülm edilməsi, hətta orta əsr insanlarını dəhşətə gətirəcək işgəncələr verilməsi davam edir.

Çıxışımı burada tamamlayır və bir daha siz hörmətli millət vəkillərindən soruşmaq istəyirəm:

1. **Sizcə işgəncə tətbiq olunan cəmiyyətdə ədalətli məhkəmə və hüquqi dövlət ola bilərmi?**
2. **Bir və ya bir neçə şəxsə verilən işgəncə bütövlükdə cəmiyyətə necə təsir edir, cəmiyyət miqyasında hansı fəsadlar törədir?**
3. **Siz həkim, hüquqşünas, müəllim və ya sadə vətəndaş kimi, işgəncəyə qarşı mübarizədə nə etməli olduğunuzu bilirsinizmi?**
4. **Siz öz susqunluğunuzla, özünüzün də bu işgəncə cinayətlərinin iştirakçısı olduğunuzu bilirsizmi, özünüzün və balalarınızın, eləcə də dövlətimizin gələcəyini təhlükəyə atdığınızın fərqindəsizmi?**

Sonda hamıda bir sual yarana bilər.

Əslində, bu sualı son vaxtlar Parlamentimizin fəaliyyəti ilə bağlı tez-tez verirlər: sizin bu fəaliyyətinizin, parlamentdəki çıxışlarınızın, qəbul etdiyiniz qərarların nə xeyri var?

Bu sualın cavabını da böyük Viktor Hüqonun sözləri ilə verərək, çıxışımı tamamlayıram:

“ Doğru düşüncə doğru addımlara aparır.

Xalqlar artıq başa düşür ki, cinayətin böyük miqyası qatilə haqq qazandıra bilməz: çünki qətl – cinayətdirsə, çox sayda insanların qətli yüngülləşdirici hal ola bilməz.

Əgər oğurluq – rüsvayçılıqdırsa, hakimiyyətin zorla əldə edilməsi şərəf gətirə bilməz,

Sezar və ya Napoleon adları heç nəyə kömək eləmir və qatil papağını çıxarıb imperator tacı qoymaqla Tanrının yanında onun qatil siması dəyişmir.”

**Oğru və qumarbaz İlham Əliyev kimi, prezident vəzifəsini silahlı çevriliş və saxta seçkilərlə ələ keçirib saxlamaq onun qatil, oğru və qumarbaz simasını dəyişməz. Bunu isə Viktor Hüqo yox, mən deyirəm.**

Biz xalqımıza doğru düşünməyi öyrətməliyik ki, o, heydərizmdən xilas olmaq üçün doğru olan addımları vaxtında ata bilsin.

Diqqətinizə görə təşəkkür edirəm.

04.10.2025-ci il. London